Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Aİ səfirləri Rusiyaya qarşı 21-ci sanksiyalar paketini razılaşdırıblar

İyul 23, 2026




Brüsseldə Avropa Komissiyasının baş qərargahı

Avropa İttifaqına (Aİ) üzv ölkələrin səfirləri Rusiyaya qarşı 21-ci sanksiyalar paketi barədə siyasi razılıq əldə ediblər. "Reuters" agentliyi bu barədə iyulun 23-də dörd Aİ diplomatına istinadla məlumat yayıb.

Diplomatlardan ikisinin sözlərinə görə, məhdudiyyətlər sırasına Rusiya neftinin qiymət tavanının 12 aylıq dondurulması daxildir. Həmçinin Rusiyanın mayeləşdirilmiş təbii qazının (LNG) üçüncü ölkələrə ötürülməsinə icazə verən və avtomatik uzadılacaq birillik istisna da nəzərdə tutulur.

**"Üzv dövlətlər Yunanıstana həmrəylik nümayiş etdirdilər. Gələcəkdə Yunanıstanın da digər ölkələrə eyni dəstəyi verəcəyi gözlənilir"**, – Aİ diplomatlarından biri bildirib.

Hazırda sanksiyalar paketi üzrə texniki işlər yekunlaşmaq üzrədir. Sənədin rəsmən qəbulu üçün bu gün, iyulun 23-də günortadan sonra yazılı prosedura start veriləcək.

Rusiya neftinin qiymət tavanına edilən düzəlişlərin bir il müddətinə dondurulması Rusiyanın "müharibə maşınının bazar şoklarından faydalanmasının qarşısını alacaq". Bunu Avropa Komissiyasının prezidenti **Ursula fon der Lyayen** bildirib.

Onun sözlərinə görə, yeni paket çərçivəsində daha 32 Rusiya bankı, kriptovalyuta şirkəti və neft ticarəti platforması Aİ-nin əməliyyat qadağası siyahısına salınır.

Fon der Lyayen əlavə edib ki, bu paket həmçinin Rusiyanın kölgə donanmasını dəstəkləyən gəmiləri hədəf alır və Rusiya hərbçilərinin Aİ-yə girişinin rəsmən qadağan olunması istiqamətində mühüm addımdır.



BUNA DA BAX:

Aİ-nin Rusiyaya qarşı 'İsveçrə pendiri'nə bənzəyən sanksiya paketi

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur